***Maşxan Astara rayonunun qədim və iri yaşayış məntəqələrindən biridir. Kənd rayon mərkəzindən 14 km şimal-qərbdə, Bakı - Astara şose yolunun üstündə yerləşir. Burada Baba Hümmət kurqanı, Orta əsrlərə aid qəbiristanlıq, XIV - XVII əsrlərə aid yaşayış yeri, Seyid Əhməd türbəsi, Seyid Kərim şəfa ocağı, məscid kimi dini-tarixi və memarlıq abidələri vardır. Müxtəlif dövrlərə aid olan bu arxeoloji və mədəniyyət abidələri Maşxan kəndinin tarixi keçmişindən soraq verir.***



# MAŞXAN ABİDƏLƏRİ

**BABA HÜMMƏT KURQANI.** Kurqan Erkən Tunc dövrü (e.ə. IV minilliyin II yarısı - III minillik) abidəsi hesab olunur. Baba Hümmət kurqanı "Maşxan" adı altında Azərbaycanın Erkən Tunc dövrü abidələrinin xəritəsinə daxil edilmişdir. Qeyd edək ki, həmin xəritədə (Azərbaycan tarixi. 6-cı sinif üçün dərslik. B., 2008, səh. 119) kəndin adı səhvən Maşexan yazılmışdır.

Baba Hümmət kurqanı 822 invertar sayı ilə ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.

**QƏBİRİSTANLIQ.** Orta əsrlərə (V - XVII əsrlər) aid olun qəbiristanlıq 5767 invertar sayı ilə yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.

**YAŞAYIŞ YERİ.** XIV - XVII əsrlərə aid edilən yaşayış yeri Maşxan yaşayış yeri adı altında 5768 invertar sayı ilə yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Baba Hümmət kurqanı, Orta əsrlərə aid qəbiristanlıq və XIV - XVII əsrlərə aid Maşxan yaşayış yeri arxeoloji cəhətdən tədqiq olunmamışdır.

**SEYİD ƏHMƏD TÜRBƏSİ.** Türbə (pir) Bakı - Astara şose yolunun sağ tərəfində, qəbiristanlıqda yerləşir. Seyid Əhməd Kərim oğlunun adı ilə bağlı olan türbə 1472-ci ilə aid dini-tarixi abidə sayılır. Burada Seyid Əhmədin qəbri ziyarət olunur. Ziyarətgah üzərində məqbərə tikilimişdir. Seyid Əhməd piri daha çox "Maşxan ocağı" adı ilə tanınır. Ziyarətgah Əhməd ibn Kərim (Əhməd Kərim oğlu) türbəsi adı altında 4131 invertar sayı ilə 1472-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.

**SEYİD KƏRİM ŞƏFA OCAĞI.** Şəfa ocağı Seyid Əhməd türbəsindən (pirindən) təqribən 250 metr aralıda yerləşir. Seyid Kərim adına ziyarətgah olan Seyid Əhmədin atasıdır. Deyilənlərə görə, o, oğlu Seyid Əhmədin sorağı ilə Karəzarana, yəni indiki Maşxana gəlir, ona oğlunun ölüm xəbəri çatdırılır. Seyid Kərim 1 ilə yaxın Maşxanda yaşadıqdan sonra vəfat edərək burada dəfn edilmişdir. Seyid olduğundan Kərimin qəbri ziyarətgaha çevrilmiş və hal-hazırda "Seyid Kərim şəfa ocağı" adı ilə tanınır. Seyid Kərimin qəbri üzərində mişar daşı ilə düzbucaqlı formada məqbərə inşa edilmişdir.

**MƏSCİD.** Maşxan məscidi kənd sakinlərinin vəsaiti hesabına qırmızı kərpicdən hörülmüşdür. Ölçüsü 15 x 7 metr olan məscidin rəsmi inşa tarixi 1905-ci il göstərilsə də, əslində məscid daha əvvəl tikilmişdir. Çünki, Bakı quberniyasının Lənkəran qəzası üzrə əhalinin 1859-cu ilə dair kameral siyahıyaalınmasında kənddə 25 ev və 187 nəfər əhali ilə yanaşı 2 məscid də qeydə alınmışdır. Bu fakt Maşxanda məscidin ən azından XIX əsrin birinci yarısında tikildiyini söyləməyə əsas verir. Məscid 4130 invertar sayı ilə 1905-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.



*İldırım ŞÜKÜRZADƏ,*
*Lənkəran rayonunun*
*Havzava kənd tam orta*
*məktəbinin tarix müəllimi.*

Kredo.- 2022- ci il.- 27 iyul.- S. 16.